KƏMALƏ SOFİYEVA
*Tarix elmləri namizədi*

# N.NƏRİMANOV VƏ DİN

İstedadlı dövlət xadimi N.Nərimanovun həyatı mürəkkəb ictimai-siyasi hadisələrin qaynağında keçmişdir. Onun ədəbi irsi çox zəngindir. Külli miqdarda dram və nəsr əsərlərinin, felyetonların, ədəbi-tənqidi, elmi-publisist məqalələrin, təbabətə dair qiymətli əsərlərin müəllifidir. O, mübariz bir vətənpərvər idi, bütün ədəbi, elmi-nəzəri yaradıcılığını və ictimai fəaliyyətini doğma xalqın taleyinə bağlamış, görkəmli ictimai xadim səviyyəsinədək yüksəlmiş, ümumxalq məhəbbəti qazanmışdır. N.Nərimanovun dövlətçilik fəaliyyətində Azərbaycan xalqının milli-mədəni inkişafı, İslam dini problemləri, milli-mənəvi dəyərlərin qorunması xüsusi yer tutmuşdur.

Uzun əsrlər boyu müsəlman ölkələrində, habelə Azərbaycanda islam dini, şəriət qanunları və dini əxlaq normaları hökmran olmuş, dini ehkamlar insanların fəaliyyətinə istiqamət verən, onlara yol göstərən qanun qüvvəsində olmuşdur. Hakim siniflər xalqı daima əsarət və itaətdə, cəhalət və nadanlıq içərisində saxlamaq, onların hər cür ictimai-siyasi təşəbbüslərini, müstəqil düşüncələrini boğmaq üçün dindən güclü ideoloji bir vasitə kimi istifadə etmişlər. Xalqın savadsızlığından sui-istifadə edən fırıldaqçı mollalar onu əsarətdə saxlamaq üçün nə Quranda, nə də şəriətdə mövcud olmayan cürbəcür uydurmalardan geniş istifadə edirdilər.

İslam ruhanilərinin əksəriyyəti həyatda və məişətdə baş verən hər cür yeniliyə qarşı, xalqı yeniliklərin təsirindən qorumaq üçün «dədə-baba» adətlərini tərifləyir, dini pərdə altında feodal quruluşunu, köhnə, mühafizəkar, ənənəvi həyat qaydalarını müdafiə edirdilər. Belə vəziyyət dövrün milli Azərbaycan ziyalılarını narahat etməyə bilməzdi. M.F.Axundovun, M.Ə.Sabirin, C.Məmmədquluzadənin yaradıcılığında bu mövzu xüsusi yer tutmuşdur. Ümumiyyətlə, XX əsrin əvvəllərində dinə münasibət məsələsi kəskin siyasi xarakter almışdı.

Ziyalıların bir qrupu islam dinini xalqın mənəvi zənginliyinin, bütün müsəlmanların, o cümlədən azərbaycanlıların həyatının toxunulmaz əsası adlandırırdılar. Bütün eybəcərliklərin, cəmiyyətdə olan ziddiyyətlərin, «islam millətlərinin» ictimai-mədəni geriliklərinin səbəbi kimi dinə, şəriətə düzgün riayət edilməməsini, şəriət qanunlarının unudulmasını göstərirdilər. Onlar, həmçinin iddia edirdilər ki, müsəlmanların dirçəlməsi və tərəqqisi, ümumiyyətlə, mümkündürsə bu hökmən müsəlmanlar arasında yeganə fəal qüvvə olan din vasitəsilə ola bilər. «İqbal» qəzeti bu barədə yazırdı: «Həyatda müvəffəqiyyət istəyiriksə, islamiyyətin canlı həqiqətlərinə əməl etməliyik» (4, s. 259).

XIX əsrin sonu – XX əsrin əvvəllərində Azərbaycanın qabaqcıl mütəfəkkirləri, o cümlədən, N.Nərimanov dini mövhumata sarsıdıcı zərbələr endirir, xalqı dini fanatizmin məngənəsindən xilas etməyə çalışırdılar. Onlar belə bir həqiqəti aydın surətdə dərk edirdilər ki, əhalinin böyük əksəriyyətinin dini fanatizmin güclü təsiri altında olduğu şəraitdə mövhumata qarşı mübarizə çox çətin olacaq.

Şərq xalqlarının adət-ənənəsinin milli xüsusiyyət və psixologiyasını dərindən bilən N.Nərimanov dini mövhumata qarşı mübarizidə yerli xüsusiyyətləri hərtərəfli nəzərə alırdı. O, dini fanatizmin güclü təsiri altında olan zəhmətkeşlərə tibb elminin əhəmiyyətini başa salmaq məqsədilə deyirdi: «İslam həmişə «hifz bədəni» nəzərdə tutur.» N.Nərimanov məqalələrindən birində ruhanilərə müraciətdə deyirdi: «Ey şəriət və Quranın ehkamlarından bixəbər qalanlar! Dünya elmlərindən müsəlman balalarını məhrum et-

məyiniz! İslam əqli və təbii bir dindir, heç bir elmdən qorxmaz, çünki elm özü təbiət aləmindən alınmış bir meyvədir» (4, s. 262).

1918-ci ilin sentyabr ayında Təzəpir məscidində Qurban bayramı haqqında oxuduğu mühazirəsində o, dindarlara deyirdi ki, Qurban bayramı «qarın doydurmaq» üçün deyildir, bayramın əsil məqsədi «Allaha olan həqiqi məhəbbəti yada salmaqdır». Odur ki, həqiqi məhəbbət aləminə «yetişmək üçün zülmü yer üzündən götürmək gərəkdir».

N.Nərimanovun dinə münasibətini aydınlaşdırmaq üçün onun böyük ilhamla yazılmış «Bahadır və Sona» romanını qeyd etməmək mümkün deyil. Bu əsərdə dini ayrı-seçkilik qəti surətdə pislənir, əsərin qəhrəmanı Bahadır hesab edir ki, din zərərli deyildir, onu korlayan mollalardır. O, İslam dinini xalqın həyatında müsbət hadisə kimi təqdir edir, onu elmin, tərəqqinin inkişafında təsiredici amil kimi əsaslandırmağa çalışır. Bahadırın fikrincə, din tərəqqi üçün yaranmışdır. İslam dini də tərəqqiyə, elmə düşmən olmamışdır. Bahadır İslam dininin tarixən mütərəqqi əhəmiyyəti olduğunu söyləyir. O, İslamın tarixi keçmişini xatırladaraq öz uşaqlarını həlak edən, murdar olmuş heyvan ətini yeyən, bir Allahın yerinə müxtəlif bütlərə səcdə edən, əxlaqı büsbütün pozulmuş ərəblərin həyatında Dinin mütərəqqi rol oynadığını söyləyir. Sonanın «günah dini gətirəndə deyil, bəlkə dini intişar edənlərdədir» fikri Bahadırın irəli sürdüyü ideyanın yekunu kimi səslənir.

N.Nərimanovun yaradıcılığının təhlili, xüsusən onun dinə münasibəti bu böyük şəxsiyyətin ümumbəşər mövqeyinə sadiqliyinin nə qədər güclü olduğunu sübut edir. «Bahadır və Sona» romanında müəllif islam dinində islahatlar keçirilməsi fikrini irəli sürürdü. İ.Cahangirov yazır ki, N.Nərimanovun bütün əsərlərində müsəlman həyatının islahatı tələbi irəli sürülür (1, s.34). N.Nərimanov savadsız ruhanilərin təsiri altında olan adamlara üz tutaraq deyirdi: «Zəmanəmiz elm-mərifət zəmanəsidir... İndidəmi elmdən, mərifətdən xəbəri olmayan axundlara cilovumuzu verəcəyik? Yox, əfəndim keçdi o vaxtlar» (6, s. 200). H.Səmədzadə yazır ki, N.Nərimanovun «Nadanlıq» pyesində nadanlıq və cəhalət «islam millətinin ən böyük düşməni, xalq fəlakətlərinin səbəbi kimi verilmişdir» (1, s.32). O, bütün həyatını xalqın maariflənməsinə, geniş kütlələrin şüur və idrak hisslərinin oyanmasına, beləliklə, cahil, molla, xan və bəylərin nüfuz və hakimiyyətini aradan qaldırmağa həsr etmişdir. N.Nərimanovun maarifçilik dünyagörüşü ona dinin əsl mürtəce mahiyyətini, onun elmi inkişafla bir yerə sığmadığını dərk etməyə imkan verməmişdir.

1920-ci ildə Nərimanovun verdiyi ilk göstərişlərdən birində yerli əhalinin adət-ənənələrinə və dini hisslərinə hörmətlə yanaşılması tələb olunurdu (2, s.127). O, XI Qızıl Ordunun rəhbərliyindən ordu bölmələrinin yerləşdikləri məscid binalarının boşaldılmasını tələb etmiş, Təzə Pir məscidinin bərpası və təmiri üçün sərəncam vermişdir. Həmçinin Nərimanov çadranın atılmasında məcburiyyətə qarşı olmuşdur (3, s. 44).

N.Nərimanov öz nəzəriyyəsində kommunizmi şərqləşdirməyi təklif edirdi. Onun nəzəriyyəsində kommunizmi və islamiyyəti barışdırmaq fikri mühüm yer tuturdu (7, s. 29-35). Bu o dövrdə çox çətin məsələ idi. Kommunist ideyası ilə yaşayanlar islamiyyəti heç yaxına buraxmırdılar. Bütün bəlaları, əskiklikləri İslam dininin ayağına bağlamaq adi hal idi. Din mərkəzləri məhv edilir, dağıdılır, dindarlar sürgün olunurdu (5, s. 92).

İslamı aradan qaldırmaqla Şərqin sovetləşməsinin mümkün olmayacağını, bu problemin böyük fəsadlar törədəcəyini anlayaraq, İslamla kommunizmi bir araya gətirməyin nəzəri əsaslarını işləyib hazırlasa da, mövcud rejimin müqaviməti onun iradəsini sındırdı.

### *ƏDƏBİYYAT*

1.Əhmədov T. Nəriman Nərimanov dramaturgiyası. Bakı, Nurlar, 2005.
2.Həsənov H. Nəriman Nərimanovun milli dövlətçilik baxışları və fəaliyyəti. Bakı, 2005.
3.Həsənov H. Nəriman Nərimanov milli təmayüllü kommunist. Bakı, Pedaqogika, 2004.
4.Köçərli F. N.Nərimanov. Bakı, 1965.
5.Qurbanov Ş. Nəriman Nərimanov: ömrünün son illəri. Bakı, Azərbaycan, 2003.
6.Nərimanov N. Əsərləri. «Bahadır və Sona». Bakı, 1956.
7.Səttarov M. N.Nərimanov və din. Bakı, İrşad, 1995.

**КЯМАЛЯ СОФИЕВА**
***Кандидат исторических наук***

### НАРИМАН НАРИМАНОВ И РЕЛИГИЯ

Видный общественный деятель, писатель, драматург Н.Нариманов посвятил всю свою жизнь просвещению своего народа, боролся с религиозной невежестью. В этой статье рассматривается отношение к религии в его литературном творчестве и общественной деятельности. Также отмечается, что проблемы исламской религии, защита национально-духовных ценностей занимают одна из главных мест в государственной деятельности Н.Нариманова.

**KAMALYA SOFIYEVA**
***Candidate of History science***

### NARIMAN NARIMANOV AND RELIGION

Well-known social figure, writer, playwright N.Narimanov had dedicated his life for his folk's enlightanments, fought with religions ignorance. In this article, considered relation to religion his literally creative and social activity. Also noted that problems of Islamic religion, protection national-spiritual values take main place in Narimanov's state activity.

***Rəyçilər: t.e.n.İ.Q.Ağayev, t.e.d.S.T.Hacıyev.***
***BDU-nun Tarix fakültəsinin «Asiya və Afrika ölkələri tarixi» kafedrasının 15 may 2009-cu il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol №09).***